# Dünyada COVID-19-la mübarizə davam edir

**Dünyada koronavirusa yoluxanların sayı 25 milyonu keçib. Worldmeters.info saytının məlumatına görə, yoluxma sayına görə, ilk beşlikdə ABŞ, Braziliya, Hindistan, Rusiya və Peru qərarlaşıblar.**



Cons Hopkins Universitetinin araşdırmasına görə, avqustun 31-dək ABŞ-da 6 milyon insan pandemiyaya yoluxub. Yoluxanlar arasında uşaqlar da var. Sentyabrın 1-nə olan məlumata görə, Rusiyanın Altay Muxtar Respublikasında sutka ərzində 19 yoluxma faktı qeydə alınıb ki, onun 5-i uşaqdır.

Yeni tədris ilinin başlanması ilə əlaqədar bir sıra ölkələr pandemiyaya qarşı mübarizədə zəruri tədbirləri davam etdirirlər. Rusiyanın paytaxtında bütün təhsil sisteminin əməkdaşları koronavirusa qarşı yoxlamadan keçiblər. Bildirilir ki, hələ tədris ili başlanana qədər 180 min vətəndaş testdən keçib. Onların 5,5 min əməkdaşı COVID-19-a yoluxub. Bu əməkdaşlar işə gəlməyəcək, həkim nəzarətində olacaqlar.

Rusiya İstehlakçıların Hüquqlarının Müdafiəsi və İnsan Rifahı Federal Xidmətinin ("Rospotrebnadzor") rəhbəri Anna Popova dərs zamanı, eləcə də tənəffüs vaxtı sanitar-epidimioloji qaydalara əməl etməyin vacibliyini vurğulayıb. O, şagirdləri başqasının dərslik kitablarından istifadə etməməyə çağırıb.

ÜST koronavirusla mübarizədə ölkələrin gördüyü zəruri addımları alqışlayır. Təşkilatın xüsusi nümayəndəsi Devid Nabarro "Magic" radiostansiyasına müsahibəsində İsveçin atdığı yumşalma addımlarını təqdir edib və digər ölkələr üçün nümunə göstərib.

Yunanıstan yumşalma tədbirləri ilə əlaqədar sentyabrın 7-21-də Rusiya vətəndaşları üçün sərhədin açılmasına qərar verib. Ölkəyə gəlmək arzusunda olanlar test keçməli və nəticə mənfi olarsa, hava nəqliyyatı ilə səyahət edə bilərlər.

"Daily Mail" qəzeti yazır ki, Böyük Britaniyada bir sıra məktəblərdə pandemiya ilə əlaqədar yeni qaydalar tətbiq edilib. Belə ki, məktəblərdə qəsdən asqırmaq və öskürmək və koronavirusla bağlı zarafatlar etmək qadağandır. London məktəblərinin birində isə zarafatla öskürən həmin şəxsin məktəbdən uzaqlaşdırılması ilə nəticələnəcək.

Keniyanın Prezidenti Uxuru Kenyatta Səhiyyə Nazirliyinə hökumətin pandemiya ilə əlaqədar bütün hesabatları açıq yayımlamağı əmr edib. Buna səbəb məmurların tibbi vasitələr üçün ayrılmış milyonlarla dollar vəsaiti oğurlaması barədədir.

Fransanın "Le Monde" qəzeti COVID-19 pandemiyası ilə əlaqədar əməkhaqlarının aşağı düşəcəyəni yazıb. Bildirilir ki, 2019-ci ildə Fransada gəlirlərin stabil qalmasına baxmayaraq, 2020-ci ildə özəl sektorda əmək haqlarının həcminə pandemiya dövrü öz təsirini göstərəcək.

Yaponiyanın Kioto İncəsənət Universitetində yeni formalı tibbi maskalar hazırlanıb. Bu maskadan istifadə edərkən rahat qidalanmaq və çəkinmədən ünsiyyət saxlamaq mümkündür. Maska həm də estetik görünüşünə görə seçilir və aksesuar effektini verir. Dizaynerlərin ideyasına görə, digərlərindən fərqli olaraq, bu maskanı taxmaq lazım deyil. Onu zərurət yarandıqda yelpik kimi ağız və burun nahiyəsinə tutmaq kifayətdir.

İdeya müəllifi Masako Sasaki hazırladığı yeni maskalarla bağlı bildirib: "Biz gündəlik narahatlıqları azaltmaq üçün vasitələr üzərində işləyirik, yeni əsas etiketi tətbiq etməyə çalışırıq."

Artıq 20 şəxs yeni tipli maskanı yoxlamadan keçirib. Onların rəyinə görə, maska əvvəlkilərdən fərqli olaraq, rahatlığı ilə seçilir. Pasientlər bildiriblər ki, əldə saxlanılan maska onlara daha çox müdafiəolunma hissi yaradır. Kyodonews.net saytı bildirir ki, maska həkimlərin tövsiyələrinə uyğun şəkildə hazırlanıb. Kioto Universitetinin dosenti Takayuki Miyadzava bildirib ki, bu maska insanların normal həyata qayıtması yolunda bir addımdır.

***Əfsanə BAYRAMQIZI,***
***"Xalq qəzeti"***

Xalq qəzeti 2020.- 6 sentyabr.- S.4.